*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*11 (4) 2024*

*Araştırma Makalesi | Research Article*
*Geliş tarihi |Received:25.07.2024*
*Kabul tarihi |Accepted:20.08.2024*
*Yayın tarihi |Published:25.08.2024*

**Ədalət Mustafayev**

**https://orcid.org/0009-0001-8984-7093**
*Professor, Azerbaijan National Academy of Sciences A. Bakykhanov Institute of History Head of the Department of History of the Karabakh War and the Great Return Movement, Azerbaijan, edalet_mustafayev@mail.ru*

*Atıf Künyesi | Citation Info*
Mustafayev, Ə. (2024). Avropa İttifaqı Missiyasının Azərbaycan-Ermənistan Şərti Sərhədlərində Fəaliyyəti. *Akademik Tarih ve Düşünce Dergisi*, *11* (4). 2763-2777.

# Avropa İttifaqı Missiyasının Azərbaycan-Ermənistan Şərti Sərhədlərində Fəaliyyəti

***Öz***

*Məqalədə, Ermənistanın qeyri–konstruktiv mövqeyi, həmçinin bir sıra dövlətlərin bölgədə sülh prosesini əngəlləmək kimi fəaliyyəti təhlil olunaraq separatizmin dəstəklənməsi siyasəti araşdırılır. Qarabağda ekologiyanın bilərəkdən məhv edilməsinə qarşı Azərbaycanlı gənclərin Xankəndi - Şuşa yolunda uzunmüddətli aksiyası önəmli tədbirlərdən olaraq dünya mediasına çıxarılır. Xankəndi -Laçın yolunda baş tutmuş tədbirlərin davam etməsi, Avropa dövlətlərinin Cənubi Qafqaza müşahidə missiyası altında nümayəndələr göndərmək regional münaqişələrin gedişatında geosiyasi maraqlarını həyata keçirmək kimi məsələlər araşdırmanın əsas məğzini təşkil edir. Avropa İttifaqının missiyasının Cənubi Qafqaza gəlməsi regionda güc sahibi olan regional dövlətlərin narahatlığına səbəb oldu. Bununla da vaxtilə Səfəvilərə, Osmanlılara qarşı xəyanət mövqeyini tutmuş ermənilərin, indi də tarixi şərait imkan verdiyi zaman Rusiya dövlətinə qarşı asi olmağa vadar etmələri dəyişməyən milli düşüncənin məhsuludur desək yanılmarıq.*

***Açar sözlər:*** *Avropa İttifaqı, Cənubi Qafqaz, ekoloqlarbirliyi, sülhməramlılar, 44 günlük müharibə*

CC BY NC
Creative Commons Licence

# Activities of the European Union Mission on the Azerbaijani-Armenian conditional borders

***Abstract***

*The article analyses the unconstructive attitude of Armenia as well as the activities of some states as an obstacle to the peace process in the region and examines the policy of support for separatism. The long-term action of Azerbaijani youth against the deliberate destruction of the ecology on the Khankandi-Shusha road in Karabakh is being covered in the world media as one of the important measures. The continuation of the activities on the Khankandi-Lachin road, the dispatch of representatives of European states to the South Caucasus on a surveillance mission, the realisation of their geopolitical interests in the course of regional conflicts, etc., constitute the main core of the study. The arrival of the European Union mission in the South Caucasus caused concerns for the regional states that wielded power in the region. Therefore, we would not be mistaken if we say that the Armenians, who once adopted an attitude of betrayal towards the Safavids and Ottomans, and now, as historical circumstances allow, force them to revolt against the Russian state, are the product of unchanged national thinking.*

***Keywords:*** *European Union, South Caucasus, Union of Environmentalists, peacekeepers, 44 Days War*

## Giriş

Uzun illər davam edən erməni təcavüzü nəticəsində bölgədə xaosun davam etməsi və bu özbaşınalığa qarşı Azərbaycan dövlətinin illərlə konstruktiv mövqe nümayiş etdirməsinə baxmayaraq virtual və real güclərin dəstəyinə arxayın olan Ermənistan dövlətinin sülh təkliflərindən yayınması geniş miqyaslı müharibəyə sövq edirdi. Nəhayət, beynəlxalq təşkilatların qəbul etdiyi qətnamələrin yerinə yetirilməsi istiqamətində addımlar atılmasına maneələrin olması, bu gün bölgəyə gələn, geosiyasi maraqları daxilində regional problemlərə müdaxilə edən Avropa dövlətlərinin açıq dəstəyindən yararlanması Ermənistanı ruhlandırır, vaxt uzatmaqla işğal etdiyi ərazilərdən çıxmayacaqlarını qəbul edirdilər. Amma qəbul edilməyən bir məsələ var idi: bölgənin əzəli və əbədi sakinləri, onların tarixi, azərbaycanlıların potensialı, həmçinin bölgədə böyük nüfuza və gücə malik Türkiyənin rolunu da unutmuşdular. 2020-ci ilin iyul ayından başlayaraq Ermənistan silahlılarının Azərbaycanın Tovuz istiqamətində hücuma keçməsi və bu istiqamətdə ikinci cəbhə açmaq cəhdləri Qarabağ cəbhəsindən fikri yayındırmaq məqsədi daşıyırdılar. Hətta, burada Azərbaycan generalı Polad Həşimovun və onun yanında bir sıra hərbçilərin öldürülməsi Respublikada siyasi gərginliyi artıraraq xalqı ayağa qaldırmağa məcbur etdi. Həmin dövrdə Avropa dövlətlərinin haqsız müdaxiləsi və bölgəyə gəlmək üçün vəziyyətin gərginləşməsində maraqlı olması aydın surətdə özünü göstərirdi. Məhz 2020-ci ilin 12 iyul tarixindən etibarən gərginləşən

vəziyyəti nizama salmaq üçün xeyli danışıqalar aparıldı. Regionla heç bir coğrafi bağlılığı olmayan, əslində regionda baş verən hadisələrə də aidiyyatı olmadığı halda sonra yaranmış şəraitdən istifadə edən dövlətlər hadisələrə müdaxilə etməyə başladılar.

**1.Avropa İttifaqı Missiyasının bölgəyə gəlişinin şərtləndirən tarixi amillər**

2020-ci il sentyabrın 27-də Ermənistan hərbi qüvvələrinin Azərbaycanla sərhədboyu ərazilərində genişmiqyaslı təxribatına qarşı Azərbaycan ordusunun əkshücum tədbirləri böyük müharibəyə çevrildi ki, bununla da Vətən müharibəsi adını almış 44 günlük müharibənin əsası qoyuldu (Zəfər Yolu, 2021, s. 10). Hərbi əməliyyatların Azərbaycan üçün uğurla başa çatmasından narahat olan güclər regional maraqlarını həyata keçirmək üçün hərəkətə keçdilər. Müharibənin uğurla başa çatmasına az qalmş Rusiya Federasiyası bölgəyə "sülhməramlı" adı altında hərbi qüvvəni yeritməklə münaqişənin həllini ləngitdi. Bununla da, bölgədə marağı olan Avropa dövlətlərinin Ermənistan-Azərbaycan arasında ziddiyyətli məqamlardan istifadə edərək Cənubi Qafqaza gəlmələrinə şərait yaranmış oldu. Ermənistan hökuməti ilə kapitulyasiya aktını imzalandıqdan sonra Avropa dövlətlərini bölgəyə cəlb etmək üçün bütün vasitələrdən istifadə edərək mövcud şəraiti öz xeyirlərinə dəyişməyə çalışdı. Əvvəlcə, Avropa İttifaqı missiyasının Cənubi Qafqaza gəlməsində "sülhpərvər" bir imic formalaşdırmağa cəhd etməsinə diqqət edək: "Avropa İttifaqı (Aİ) sərhəd bölgələrində sabitliyə töhfə vermək üçün mülki missiya yaradır. Şura Ümumi Təhlükəsizlik və Müdafiə Siyasəti (CSDP) çərçivəsində Ermənistanda Avropa İttifaqının mülki missiyasının (EUMA) yaradılmasına razılıq vermişdir. Missiyanın məqsədi Ermənistanın sərhədyanı ərazilərində sabitliyə töhfə vermək, yerlərdə etimadın yaradılması və Aİ tərəfindən dəstəklənən Ermənistan və Azərbaycan arasında normallaşma səyləri üçün əlverişli mühitin təmin edilməsidir. Xosep Borrell, Xarici Əlaqələr və Təhlükəsizlik Siyasəti üzrə Ali Nümayəndə Avropa İttifaqının Ermənistanda missiyasının yaradılması Aİ-nin Cənubi Qafqazdakı fəaliyyətində yeni mərhələyə start verir. Avropa İttifaqı gərginliyin azaldılması səylərini dəstəkləməyə davam edəcək və regionda davamlı sülhün əsas məqsədinə doğru hər iki tərəflə yaxından işləməyə sadiqdir. Xosep Borrell, Xarici Əlaqələr və Təhlükəsizlik Siyasəti üzrə Ali Nümayəndə Ermənistanın tələbinə cavab olaraq orada müntəzəm patrul xidməti həyata keçirəcək və vəziyyətlə bağlı hesabat verəcək, bu da, Aİ-nin yerdəki vəziyyətlə bağlı anlayışını gücləndirəcək. Missiya həmçinin Avropa Şurasının prezidenti Şarl Mişelin rəhbərlik etdiyi proses çərçivəsində vasitəçilik səylərinə töhfə verəcək" (Armenia: EU establishes, 2023). Bölgədə əsas regional güclərdən biri olan Rusiya Federasiyası Avropanın Cənubi Qafqaza müdaxiləsini asanlıqla qəbul etmədi. Ermənistan-

Azərbaycan münaqişəsinə fərqli münasibət bildirən bir sıra Avropa dövlətləri qarşıdurmadan lazımınca faydalanmaq üçün məsələnin "müsbət həlli" üçün bir sıra dövlətlərdə görüşlər keçirərək regional siyasətə təsir etməyə çalışdılar. Məhz Brüssel görüşü də geosiyasi maraqlar kontekstində reallaşan və dünya siyasətinə təsir edən aktorların güc göstəricisidir.

Kapitulyasiyasiya aktından sonra Ermənistanda erməni cəmiyyətinin tədricən Rusiya əleyhinə çıxışları, Avropaya meyilli tələblərin gündəmə gəlməsi, artan gərginlik fonunda Avropa dövlətlərinin Cənubi Qafqaza gəlməsinə real şərait yarandı. Ermənilər sülhməramlıların nəzarətində olan yollar vasitəsilə Qarabağa mütəmadi silah-sursat daşımaları ciddi narahatlıq yaratdığından bir sıra qeyri-hökumət təşkilatları tarixi əhəmiyyəti olan addım atmağa başladılar. 2022-ci il dekabrın 11-də Azərbaycan Ekoloqlar Birliyi və qeyri-hökumət təşkilatlarının üzvləri tərəfindən Azərbaycanın Xankəndi-Laçın yolunda ekologiyanın məhv edilməsinə qarşı müxtəlif şüarlarla aksiyaya başladılar (Məmmədova, 2023). Aksiya getdikcə geniş vüsət almağa başladı. Tədbirin humanitar məqsəd daşımasına baxmayaraq hətta bölgədə olan sülhməramlılar da bundan narahat olmağa başladılar. Azərbaycanlı ekoloqların qətiyyətli addımından sonra reallıqla barışmağa məcbur olan Rusiya Federasiyasının sülhməramlı qüvvələri geri çəkilməyə məcbur oldular. Bu aksiya əsasən Avropanın bir sıra dövlətlərinin ciddi etirazına səbəb oldu. Avropa Şurasının Prezidenti Şarl Mişelin səyi nəticəsində Azərbaycan və Ermənistan dövlət başçılarının görüşü mütəmadi xarakter almağa başladı. "EU Neighbourseast" (Avropa Birliyi Şərq qonşuları) platformasında "Avropa Siyasi Birliyi: Azərbaycan və Ermənistan liderləri Praqada görüşü baş tutdu" başılığı altında paylaşılan xəbərdə də qeyd edilir: "Azərbaycan prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan 2022-ci il oktyabrın 6-da Fransa Prezidenti Emmanuel Makron və Avropa Şurasının sədri Şarl Mişelin dəvəti ilə Avropa siyasi ictimaiyyətinin ilk iclası çərçivəsində Praqada görüşüblər. Ermənistan və Azərbaycan BMT Nizamnaməsinə və hər iki tərəfin bir-birinin ərazi bütövlüyünü və suverenliyini tanıdığı 1991-ci il Alma-Ata Bəyannaməsinə sadiqliklərini bir daha təsdiq etdilər. Onlar təsdiqləyiblər ki, bu, sərhədin delimitasiyası komissiyalarının işi üçün əsas olacaq və sərhəd komissiyalarının növbəti iclası oktyabrın sonunda Brüsseldə baş tutacaq. Ermənistan Aİ-nin mülki missiyasının Azərbaycanla sərhəddə yerləşdirilməsinə yardım etməyə razılaşıb. Azərbaycan müvafiq hallarda missiya ilə əməkdaşlığa razılıq vermişdir. Missiya oktyabrda başlayacaq və maksimum iki ay davam edəcək. Missiyanın məqsədi etimad yaratmaq və öz hesabatları vasitəsilə sərhəd komissiyalarının işinə töhfə verməkdir" (European Political Community, 2022). Qeyd etmək lazımdır ki, bu sənədlərdən irəli gələn bir məsələdir. Həqiqətdə isə Avropanın ikili mövqeyi aydın sezilir.

Fransa-Azərbaycan arasında böyük maliyyə və əmtəə dövriyəsinin olması iki ölkə arasında qarşılıqlı iqtisadi əlaqələrin artan templə inkişafının göstəricisidir. İki dövlət arasında əldə olunan iqtisadi əlaqələr Azərbaycan dövlətinin yeritdiyi xarici siyasət, Ulu Öndər Heydər Əliyevin Fransaya rəsmi səfəri zamanı bağlanan müqavilələr (Müstəqillik dövründə ingilisdilli mətbuatda, 2023, s.161-168) sayəsində əldə edilmişdir. Fransa - Ermənistan arasında heç vaxt iqtisadi əlaqələr yüksək səviyyədə olmamışdır. Çünki Ermənistanın Fransanı cəlb edəcək heç bir ciddi iqtisadi layihələri mövcud deyildir. "Bu gün Fransız şirkətləri Azərbaycanın enerji layihələrində yaxından iştirak edirlər. Bu layihələrin dəyəri təqribən 2 milyard avroya yaxındır. Ümumilikdə respublikamızda sənaye, xidmət, rabitə, ticarət, bank və sığorta, kənd təsərrüfatı sahələrində 45 Fransa kapitallı şirkət fəaliyyət göstərir" (Azərbaycan-Fransa iqtisadi əlaqələrinin səviyyəsi, 2020). "Ermənistan: Aİ sərhəd bölgələrində sabitliyə töhfə vermək üçün mülki missiyaya başlayır" başlıqlı məqalədə göstərilir: "Bu gün Avropa İttifaqı Ümumi Təhlükəsizlik və Müdafiə Siyasəti (CSDP) çərçivəsində Ermənistanda Aİ-nin mülki missiyasını (Aİ-nin Ermənistanda Missiyası/EUMA) işə salır. EUMA rəsmi olaraq 23 yanvar 2023-cü il tarixli Şura Qərarı ilə yaradılıb. Ermənistan-Azərbaycan sərhədinin Ermənistan tərəfində yerləşdirməklə Ermənistanın sərhədyanı ərazilərində sabitliyə töhfə vermək, münaqişənin təsirinə məruz qalmış ərazilərdə etimad və insan təhlükəsizliyini gücləndirmək məqsədi daşıyır və Aİ tərəfindən dəstəklənən Ermənistan və Azərbaycan arasında normallaşma səyləri üçün əlverişli mühitin təmin edilməsi" (Armenia: EU establishes a civilian mission, 2023) prinsipini təbliğ edir. Daha sonra göstərilir ki, "Aİ missiyanı Ermənistan hakimiyyətinin Aİ-nin tamhüquqlu mülki missiyasını yerlərdə yerləşdirməklə bağlı rəsmi müraciətinə cavab olaraq yaradıb. Bu yerləşdirmə əvvəllər 20 oktyabr 2022-ci il və 19 dekabr 2022-ci il tarixləri arasında Ermənistan-Azərbaycan sərhədinin Ermənistan tərəfində yerləşdirilmiş Aİ Monitorinq Potensialının (EUMCAP) uğurlu təcrübəsindən sonra həyata keçirilir. Aİ-nin Ermənistandakı missiyasının Aİ-nin sülhü təşviq etmək səylərini dəstəkləməsi gözlənilir..." (About European Union, 2023). Aİ-nin sülhü təşviq etmə siyasətinin olması isə tamamilə şübhə doğurur. Bunu sonra baş verən proseslər göstərir.

## 2.Avropa İttifaqı Missiyasının fəaliyyəti və regionda baş verən siyasi proseslərin tarixi-müqayisəli təhlili

Avropa İttifaqının ilk müşahidə missiyasının Ermənistan üzrə nümayəndələrinin fəaliyyətinə Azərbaycan tərəfinin müşahidələri əsasında fikir yürütsək missiyanın sülhə töhfə verəcək heç bir əsaslı arqumentinin olmadığı aydın görünür. Bu missiya ermənilər haqqında müsbət işləri görməyə çalışır, ancaq Azərbaycan ərazilərində ermənilərin törətdikləri cinayətlər haqqında xəbərdar

olmalarına baxmayaraq heç bir bəyanat vermədilər, onların işğal olunan ərazilərimizdə məscidlərimizə qarşı həyata keçirdikləri eybəcərliklərə, yeraltı-yerüstü sərvətlərimizi talamalarına, müqəddəs dəyərlərimizi məhv etmələrinə heç bir münasibət göstərmədilər. Amma dünyanın aparıcı dövlətlərinin kütləvi informasiya vasitələrində Laçın-Şuşa yolunun bağlanmasına etiraz edilir, bu barədə məlumatlar qəzetlərin manşetinə verilir. Hadisələrin gedişi göstərir ki, Avropa İttifaqı yeni, uzunmüddətli missiyanın göndərilməsinə hazırlaşır.

Regionda gedən siyasi proseslərin mürəkkəbliyinə baxmayaraq, Azərbaycan dünya dövlətləri içərisində özünəməxsus şəkildə bütün sosial-siyasi tədbirlərdə yer alır, dünya gündəmində çoxşaxəli istiqamətlərdə töhfə verərək pozitiv rolda çıxış edir. O cümlədən Azərbaycanla əməkdaşlıq etmək istəyən Avropa dövlətləri də günü-gündən artmağa başlayır (Quliyev, 2022). Mətbuatda yer alan başlıqlardan biri də “Rusiya səfirinin BMT TŞ-də Laçın yolu haqqında çıxışı olmuşdur ki, Ermənistan tərəfinin nümayəndəsi Simonyan bunu narahatlıqla qarşılamışdır. BMT-də Laçın yolu ilə bağlı müzakirələr aparıldı və Qərb dövlətləri yenə də məsələyə birtərəfli yanaşaraq ikili standartlardan çıxış etdilər. Təhlükəsizlik Şurasının iclasında Rusiya Federasiyasının təşkilatdakı daimi nümayəndəsinin müavini Anna Yevstiqneyeva da bu məsələyə ənənəvi münasibət bildirərək qeyd edib ki, “Moskva Azərbaycan və Ermənistanı təmkin nümayiş etdirməyə və gərginliyin dərəcəsini artıra biləcək addımlardan çəkinməyə, habelə Rusiya, Azərbaycan və Ermənistan liderlərinin 10 noyabr 2020-ci il, 11 yanvar və 26 noyabr 2021-ci il, həmçinin 31 oktyabr 2022-ci il tarixli üçtərəfli bəyanatları çərçivəsində razılaşmalara əməl etməyə çağırır”. Orada qeyd olunur ki, bu bəyanatların müddəalarının tam yerinə yetirilməsi Bakı ilə İrəvan arasında münasibətlərin normallaşması üçün ən sabit düsturdur. Dörd sənədin hər biri mürəkkəbdir, bir-birinin davamıdır və onların müddəaları bir-birindən irəli gəlir. Onların icrası Cənubi Qafqazda təkcə region dövlətlərinin deyil, həm də qonşu dövlətlərin maraqlarına cavab verən davamlı sülhün formalaşması üçün şərait yaradacaq” (Ordahallı, 2022). Göründüyü kimi, Avropa nümayəndələrinin Cənubi Qafqaza gəlməsi reallaşdıqca Rusiyanın öz forpostu olan Ermənistana mövqeyi dəyişə bilir. Bu mənada, yeni geosiyasi dəyişikliklərə gətirə biləcək məqamların meydana çıxması qaçılmazdır. Rusiya nümayəndəsinin nisbətən ədalətli mövqe sərgiləməsi Ermənistan parlamentinin sədri Alen Simonyanı qıcıqlandırmış və bu səbəbdən, o, Rusiyanı tənqid etmişdir: “Rusiya nümayəndəsinin BMT-dəki çıxışını mənfi dəyərləndirirəm. Çünki hesab edirəm ki, müttəfiq ölkə kimi Rusiya Ermənistanla sıx münasibətləri olmayan ölkələrin etdiyi kimi daha ünvanlı çıxış edə bilərdi. Düşünürəm ki, Rusiya ya bacarmır, ya istəmir, ya da nə bacarır, nə də istəyir. Son baş verən hadisələrdən sonra bu məni təəccübləndirmir”

(Ordahallı, 2022). Missiyanın Ermənistan və Azərbaycan arasında razılaşma haqqında məlumatları yer alır: “Ermənistan və Azərbaycan sərhəddə Aİ missiyası ilə razılaşıblar. Bu addım, iki ölkə sülh sazişi imzalamağa doğru getdiyi bir vaxtda, sərhəddə gərginliyin yüksək həddə olduğu zamana təsadüf edir. Ermənistan tərəfindən Aİ-nin Azərbaycanla sərhəddə mülki missiyasına kömək etmək üçün razılaşma var idi. Azərbaycan bu missiya ilə bağlı olduğu qədər əməkdaşlığa razılıq verib” (Armenia, Azerbaijan agree to EU, 2022). Aİ-nin oktyabrın 6-da verdiyi bəyanatda Missiyanın mahiyyəti, potensialı və məqsədi barədə əlavə təfərrüatlar təqdim etmədiyi göstərilir. Aİ-nin bəyanatında deyilir: “Missiya oktyabrda maksimum iki ay müddətinə başlayacaq. Bu missiyanın məqsədi güvən yaratmaq və hesabatları vasitəsilə sərhəd komissiyalarına töhfə verməkdir.” (Armenia, Azerbaijan agree to EU, 2022). Görünür bu irəliləyiş oktyabrın 6-da Praqada Ermənistanın baş naziri Nikol Paşinyanla Azərbaycan prezidenti İlham Əliyev arasında keçirilən təkbətək danışıqların nəticəsidir. Avropa Siyasi Birliyinin Zirvə Toplantısı çərçivəsində baş tutan mübadilədə Fransa prezidenti Emmanuel Makron və Avropa Şurasının sədri Şarl Mişel də iştirak etmişdilər.

Bu barədə politoloq Tiqran Qriqoryan Eurasianet-ə Aİ-nin fəaliyyətinə münasibət bildirərkən bütün bunların müsbət inkişaf olduğunu vurğulamış və qeyd etmişdir ki, bu iki ay ərzində Ermənistandan konkret addımlar gözləniləcəkdir. Daha sonra o, bildirir ki, “Bakı İrəvana daha tez sülh razılaşmasına gəlməsi, sərhədlərin demarkasiyası və aralarında yeni nəqliyyat marşrutlarının xarakteri kimi onlar arasında həll olunmayan digər mühüm məsələləri həll etməsi üçün təzyiq edir” (Armenia, Azerbaijan agree to EU, 2022). Azərbaycan dövlətinin konstruktiv mövqeyinə Ermənistan tərəfinin nümayəndəsi Tiqran Qriqoryanın söylədiklərindən belə çıxır ki, sülh razılaşmasına təkid etmək təzyiq etmək deməkdir. Respublikanın belə mürəkkəb şəraitində Azərbaycan Prezidenti İlham Əliyev 2022-ci il dekabrın 24-də Qərbi Azərbaycan icmasının inzibati binasında yaradılan şəraitlə tanış olaraq tarixi Azərbaycan torpaqları ilə bağlı xüsusi mesajlar vermişdir. Prezident mühüm istiqamət olaraq “Əminəm ki, gün gələcək və Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar” (Prezident İlham Əliyev, 2022) mesajını vermişdir. Xankəndi - Laçın yolunda ekofəalların fəaliyyəti zamanı bir sıra dövlətlər ikili siyasət yeridərək ənənəvi şəkildə tərəfli mövqe tuturdular. Bütün bunları ümumiləşdirdikdə Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının həmrəyliyi günü və Yeni il münasibətilə xalqa müraciətində demişdir: “Ümid var ki, donor təşkilatlar bu ədalətsizliyə son qoyacaq. ... Əlbəttə biz ümid edirik ki, beynəlxalq

donor təşkilatları öz diqqətini bizə də istiqamətləndirəcəklər. ... Çünki bu dərəcədə böyük dağıntılar tarixdə olmayıb. Yəni, Azərbaycan böyük ekoloji fəlakətlə, urbisidlə üzləşib. Ancaq, əfsuslar olsun ki, beynəlxalq donor təşkilatları bizə bir manat, ya da bir dollar kömək etməyiblər. Nəinki donor təşkilatları, heç kim bizə kömək etmir, bütün bərpa işlərini öz hesabımıza aparırıq və aparacağıq" (Ordahallı, 2023). Cənubi Qafqazda baş verən proseslərə geosiyasi maraqlar kontekstində nəzər yetirmək və onların mövqeyini görmək üçün burada fəaliyyət göstərən dövlətlərin nümayəndələrinə də istinad etmək yerinə düşər. Mövqeyi dəyişməz olan dövlətlərdən biri də İsraildir. İsrailin Azərbaycandakı səfiri Corc Dik müsahibəsində İsrailin Azərbaycana işğaldan azad edilmiş ərazilərdə "ağılı şəhərlər"in yaradılması sahəsində əməkdaşlıq təklif etdiyini qeyd edib. O, bildirib ki, İsrail əvvəllər öz şirkətlərinin Qarabağda infrastrukturun bərpası prosesində hazır olduğunu açıqlayıb və indi də bunu edir (Qəribli, Ermənistanın, 2023). Qeyd etmək lazımdır ki, İsrailin bu humanist addımları bəzi özünü müsəlman ölkəsi adlandıran və Ermənistan kimi bir dövlətə hamilik etmək istəyən dövlətləri narahat edirdi. O cümlədən Ermənistan dövlətinə Avropadan, ABS-dan gələn dəstəyə heç bir reaksiya verməyən, Azərbaycana olan dəstəkdən isə narahat olan müsəlman "İran İslam Respublika"sı narahatlıq keçirərək Azərbaycana təhdid xarakterli mesajlar verirdi. Rəsmi Tehran islami dəyərləri təhqir edən Ermənistanın yanında yer almışdı (Cəfərli, 2023). Bölgədə baş verən prosesləri nizamlamaq üçün müxtəlif zamanlarda fərqli münasibətlərin meydana çıxması, eyni zamanda qeyri-konstruktiv addımları zaman-zaman regional gərginliyin artmasına gətirib çıxarırdı. Belə bir məqamda Ermənistan Baş naziri Nikol Paşinyan bildirib ki, Qarabağda atəşkəs rejiminin pozulması sülhməramlıların fəaliyyəti ilə bağlı bir sıra suallar doğurur: "Rusiyanın Qarabağdakı sülhməramlı əməliyyatının təfərrüatlarına aydınlıq gətirmək mütləqdir. Mən dəfələrlə demişəm ki, Rusiya sülhməramlılarının Qarabağda olması və fəaliyyəti ermənilərin təhlükəsizliyinin əsas amilləridir. Biz Rusiya Federasiyasının regionumuzda sülh və sabitliyin təmin edilməsi üçün göstərdiyi səyləri yüksək qiymətləndiririk. Amma bu gün vəziyyət dəyişib. Onlar regiondakı hadisələrə göz yumurlar" (Qəribli, İsraildən Azərbaycana, 2023). Ermənistan-Rusiya arasında olan əlaqələrə erməni rəsmilərinin fikirləri diqqət çəkir. Bu barədə "armenian report" portalı yazır ki, İrəvan Moskvanın mövqeyinin əksinə olaraq Ukraynaya açıq dəstək verəcək. Portal bu xüsusda qeyd edir: "Ukrayna bu yaz böyük əks-hücum planlaşdırır. Yazda cəbhə xəttində ən ağır döyüşlər olacaq. Bu barədə Ukrayna Müdafiə Nazirliyinin Baş Kəşfiyyat İdarəsinin rəisi Kiril Budanov "ABC News"a müsahibəsində məlumat verib. O, bildirib ki, 2023-cü ilin mart ayında ən qızğın döyüşlərin olacağı gözlənilir. ... Bizim məqsədimiz Ukraynanın 1991-ci ildəki sərhədlərinə qayıtmaqdır və biz buna nail olacağıq. Bu

ərazilər beynəlxalq hüququn bütün subyektləri tərəfindən tanınır. Rusiya artıq dünya üçün hərbi təhlükə yaratmır. Rusiyanın tranformasiyasından qorxmayın. Bu yalnız bütün dünyanın xeyrinə olacaq. Rusiya qoşunları praktiki olaraq Ukraynanın müvəqqəti işğal olunmuş ərazilərini müdafiə etməyə məcburdur, lakin bu uzun müddət davam etməyəcək" (Ağayev, 2023). Müharibənin Rusiyanın dərinliyinə nüfuz edə biləcəyi kimi fikirlərə münasibətində Ukraynanın Xarici İşlər naziri Dmitri Kuleba Kiyevdə onlayn Brifinqdə bildirib ki, bu ölkənin hakimiyyət orqanları artıq Qərb silahlarının yeni növlərinin tədarükü üçün lazım olan həllər üzərində işləyir. Kuleba deyib: "Şübhə etmirəm ki, tezliklə Ukrayna ordusu əlavə zireh və atəş gücünə malik olacaq" (Ağayev, 2023). Bunun fonunda Amerikanın 1961-ci ildə əsası qoyulmuş Hudson institutu təqdimatla çıxış edib. İnstitut hökumətin və ABŞ silahlı qüvvələrinin sifarişlərini yerinə yetirən strateji tədqiqat mərkəzi rolunu oynayır. Beləliklə, onlar ABŞ hökumətini Rusiya Federasiyasının dağılmasının mümkün senarisininə hazır olmağa çağırıblar. Buradan göründüyü kimi, Ukrayna rəsmiləri qalib gələcəklərinə çox inanırlar. Xatırlatmaq yerinə düşər ki, Ermənistanın Ukraynadakı səfiri Vladimir Karapetyanın Rusiya-Ukrayna münaqişəsindən danışarkən baş nazir Nikol Paşinyana Ukraynanın qələbəsinin bir neçə ayın işi olduğunu vurğulayaraq onu dərhal dəstəkləməyi tövsiyyə etmişdir. Onun bu fikirlərinə qəzəblənən Ermənistanın Rusiyadakı səfiri Vaqarşap Arutyunyan Ukraynadakı səfiri "xəstə" adlandırıb. "Xəstələrdən xahiş edərdim ki, burada danışmasınlar. Rusiya uduzmayacaq, istənilən şəraitdə və hadisələr bu istiqamətdə inkişaf edərsə, nüvə silahından istifadə edəcək" (Ağayev, 2023). Fikrimizcə, Rusiyanın tamamilə sıradan çıxmasını sübut edən heç bir arqument yoxdur, sadəcə zəifləyərək geosiyasi oyunçudan regional oyunçuya çevrilməsi ehtimalı daha çoxdur. Fransada "Charliye Hebdo"da Azərbaycan əleyhinə nəşr olunan məqalədə çox qərəzli yanaşmalara, əsassız şəkildə uydurmalara yol verilmişdir. Məqalədə göstərilir ki, Azərbaycan dünyanın əsas diqqətinin Ukraynaya yönəlməsindən istifadə edərək Ermənistan və Qarabağ əhalisini yer üzündən silmək istəyir (Наглая ложь, 2023). Açıq-aydın şəkildə qərəzli olan bu məqalə sırf erməni dəsti-xətti ilə yazılmış, "Avropa dəyərləri"ni zədələyən bir cəfəngiyyat məsələsidir. Belə bir gündə Qarabağ separatçılarına yeni təyin edilmiş Ruben Vardanyanın Xankəndidəki fəaliyyəti narahatlıq doğurur. Həmçinin o, Xankəndi-Laçın yolunun tam humanitar məqsədlərlə açıq olmasından bəhanə kimi istifadə edərək Azərbaycanı narahat edən məsələlər haqqında bəyanatlar verir. Onun səsləndirdiyi fikirlərdə Azərbaycan suverenliyinə qəsd, hava məkanının pozulması kimi hallar diqqəti cəlb edir. Separatçı açıq şəkildə bildirir ki, Xankəndi aeroportu işə salınmalı və o, ermənilərin istifadəsinə verilməlidir (Vardanyan predstavil polnost'yu zakrytyye

karty, 2023). Tarixi reallıqlar və gerçəkliklər onu deməyə əsas verir ki, ermənilər geosiyasi mənada qlobal və regional güclərin maşaları olmaqdan narahat deyillər. Bütün bunlara baxmayaraq, Azərbaycan dövləti Ermənistanla bağlanmış 10 noyabr 2020-ci il bəyanatına uyğun olaraq hərəkət edir, eyni zamanda, Ermənistandan da tələb edir ki, həmin sazişdən irəli gələn öhdəliklərin yerinə yetirilməsinə tam əməl etsin. Bəzi məqamlarda Ermənistan siyasi rəhbərliyi bu istiqamətdə cüzi də olsa pozitiv mövqe görüntüsü yaratsa da, regionda siyasi gücə çevrilmək iddiasında olan İran İslam Respublikasının münaqişə yaradacaq addımlarının şahidi oluruq (Вмешиваяс в отношения, 2023). Ermənistan və Azərbaycan arasında baş verən proseslərə region dövlətlərindən İranın fəaliyyətini də aid etsək görərik ki, bu dövlətin danışıqlarda qeyri-konstruktiv mövqeyi, əsasısz olaraq Ermənistanı dəstəkləməsi onun islam dövləti adlandırılmasına haqq qazandıra bilməz. Son illərdə Azərbaycan öz ərazilərindən İrana qarşı hər hansı bir hərbi müdaxilənin əleyhinə olmuşdur. Mövcud siyasi şəraitdə İranın bəzi obyektlərinin, şəhərlərinin vurulması barədə fərqli iddialar səslənməyə başlamışdı. "The New York Times" qəzeti adını açıqlamadığı mənbəyə istinadən İsrail və ABŞ-ın İrana gecə zərbəsi endirəcəyini yazıraq hücumun arxasında İsrail kəşfiyyat xidməti MOSSAD-ın ola biləcəyi iddia edir (Tağıyev, 2023). Ermənistanı dəstəkləməkdən çəkinməyən bu dövlətin dini dəyərlərdən, haqq-ədalətdən, müqəddəs müsəlman adətlərindən kənarda olması bizdə şübhə yaratmır. 2022-ci il dekabrın 27-də Fransanın vasitəçiliyi ilə Brüssel formatında Azərbaycan və Ermənistan prezidentlərinin görüşü İlham Əliyev tərəfindən, haqlı olaraq təxirə salındı. Belə bir məqamda BBC-nin Hardtalk klubunun aparıcısı Stiven Sakurun Moskvanın tərəfdaşı hesab etdiyi Vartanyanla müsahibəsini dinlədikdə belə qənaətə gəlmək olur ki, Vardanyan öz arzularını heç bir əsası olmadan həqiqət kimi dünyaya çatdırmaq istəyir. Birincisi, o, deyir ki, Sovet dövründə dərsliklərdə Artsaxın erməni ərazisi olması barədə "tarixi həqiqətlər" var, ikincisi isə, guya 1000 ildir ki ermənilər orada yaşayır (Vardanyan predstavil polnost'yu zakrytyye karty, 2023). Belə cəfəngiyyat fikirlər ancaq xəstə təxəyyüllün məhsulu ola bilər.

Azərbaycan dövləti praqmatik siyasət yeridərək Avropa və digər dövlətlərlə strateji tərəfdaşlıq kontekstində pozitiv əlaqələrin qurulmasında çox maraqlıdır. Ermənistanın isə siyasətində Avropa və digər dövlətlərin bölgəyə gətirilməsi onların marağına xidmət edir. Rumıniya prezidentinin Azərbaycana gəlməsi və onun çıxışında bir məqam xüsusi diqqət çəkir. O, qeyd edir ki, Cənubi Qafqazda Azərbaycan yeganə dövlətdir ki, Rumuniya onunla strateji tərəfdaş səviyyəsinə qədər əlaqələr qurmuşdur. Azərbaycan Respublikasına səfərə gələn Rumıniya prezidenti Klaus İohannisin fevralın 2-də rəsmi qarşılanma mərasimi oldu. Prezidentlər əvvəlcə təkbətək, sonra geniş tərkibdə görüş keçirdilər. Daha sonra mətbuat konfransı keçirən Liderlər

bəyanatlarla çıxış etdilər (Azərbaycan və Rumıniya, 2023). Burada diqqəti çəkən məqamlardan biri də Ermənistana gələn Avropa İttifaqı missiyasına rəhbərlik edən şəxsin alman əsilli Mark Svift olmasıdır. Həmin şəxs Kosovoda mərkəzi aparatın rəhbəri, Federal sərhəd idarəsinin baş nəzarətçisi olmuşdur. Gələn digər adı açıqlanmayan şəxs isə NATO ilə əlaqəli olan koordinasiya qrupunun rəhbəri olacaq və Avropa İttifaqı missiyası ilə əlaqəli hərəkət edəcəkdir. Hərbçilərin mülki missiyaya necə rəhbərlik etməsi sual doğurur (Aİ-nin Ermənistandakı missiyası, 2023). Bütün danışıqlardan görünür ki, bu missiyaya Fransa dövləti rəhbərlik edəcəkdir. Avropanın bəzi dövlətlərinin separatçı mövqeyinə dəstək verməsinə baxmayaraq Azərbaycan-Avropa əlaqələrində pozitivlik müşahidə edilir. 2023-cü il fevralın 3-də Bakıda nəzərdə tutulan “Cənub Qaz Dəhlizi” Məşvərət Şurası çərçivəsində nazirlərin 9-cu iclası və ilk dəfə “Yaşıl enerji” Məşvərət Şurası çərçivəsində nazirlərin 1-ci iclası keçirillməsi nəzərdə tutulmuşdu. AZƏRTAC-ın məlumatına əsasən bu mötəbər tədbirdə Avropa Komissiyasının enerji məsələləri üzrə komissarı Kadri Simsonun, Türkiyə, İtaliya, ABŞ, Böyük Britaniya, Gürcüstan, Macarıstan, Rumıniya, Bolqarıstan, Yunanıstan, Albaniya, Moldova, Monteneqro, Serbiya, Ukrayna və Xorvatiyanın səlahiyyətli nümayəndələrinin iştirakı nəzərdə tutulmuşdu. İclaslarda enerji şirkətlərindən SOKAR, BP, BOTAŞ, TRAO, TAQA, Bulqarqaz, EAD, Bulqartransqaz, maliyyə təsisatlarından Dünya Bankı, Beynəlxalq Maliyyə Koorporasiyası, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnfrastruktur və İnvestisiya Bankı, Asiya İnkişaf Bankı və digər qurumlar da təmsil olunacaq (Azərbaycan zəngin potensialı, 2023). Ermənistan - Azərbaycan - Rusiya Federasiyası arasında üçtərəfli danışıqların olmasına baxmayaraq, Ermənistan tərəf razılaşmanın müddəalarını pozmağa çalışır, götürdüyü öhdəliklərin yerinə yetirilməsinə mane olur, həmçinin Azərbaycan ərazilərində basdırılan minaların xəritələrini verməkdən çəkinərək yeni faciələrə yol açır. Bu baxımdan, Ermənistanın qeyri-insani hərəkətlərinə qarşı tədbirlər görülməsi tələb olunur. Azərbaycan Ermənistanın soydaşlarımızın insan hüquqlarını məqsədyönlü şəkildə pozmasına cavab olaraq, “İrqi-ayrı seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında” Beynəlxalq Konvensiya (CERD) çərçivəsində təcili tədbirlər görülməsi məqsədilə Beynəlxalq Ədalət Məhkəməsinə (BƏM) müraciət edib. Müraciətdə, “Ermənistanın 2021-ci ildən başlayaraq Azərbaycan ərazisində minalar və evlərdə mina-tələlər yerləşdirməkdə davam etdiyinə dair yeni sübutlar, Ermənistanın qanunsuz işğalı nəticəsində azərbaycanlıların 30 il əvvəl qovulduğu mülki yaşayış məntəqələrində və ya onların yaxınlığında minalar və mina-tələlər yerləşdirilməklə məcburi köçkün ailələrin və icmaların öz evlərinə qayıtmasına maneçilik törətməsinə, üçtərəfli bəyanatı kobud şəkildə

pozmasına, hərbi təxribatları davam etdirməsinə və yalnız humanitar məqsədlər üçün nəzərdə tutulan Laçın yolundan minaların, digər silahların daşınması məqsədilə açıq şəkildə istifadə etməsinə dair sübutlar yer alıb" (Qardaşxanova, 2023). Avropa İttifaqının uzunmüddətli missiyası Ermənistanda 2023-cü il fevralın 20 -də öz işinə başladıqdan bir gün sonra Ermənistan tərəfindən bütün cəbhəboyu ərazilərdə atəşkəsin pozulması "siyasi vəziyyətin gərginləşməsində kimin və hansı dövlətin marağı vardır" kimi yeni suallar doğurur. Ermənistanın keçmiş və müasir separatçılıq təcrübəsindən irəli gələn fəaliyyət onu deməyə əsas verir ki, atəşkəsin pozulmaması mümkün deyildir. Müdafiə Nazirliyinin yaydığı xəbərə görə, "fevralın 21-i saat 20:45-dən fevralın 22-i saat 01:20-dək Azərbaycan ordusunun mövqeləri 15 dəfə atəşə tutulub. Ermənistan silahlı qüvvələrinin bölmələri Tovuzqala rayonunun Çinarlı və Vedi rayonunun Birəli yaşayış məntəqələri istiqamətində yerləşən mövqelərindən Ordumuzun Tovuz rayonunun Ağdam yaşayış məntəqəsi və Naxçıvan Muxtar Respublikasının Sədərək rayonu istiqamətlərində yerləşən mövqelərini snayper tüfənglərindən və müxtəlif çaplı digər atıcı silahlardan fasilələrlə atəşə tutub" (Əliyev, 2023). Azərbaycanın sabiq diplomatı Tofiq Zülfüqarov bu məsələlərə münasibət bildirərək qeyd etmişdi ki, "Münhen Təhlükəsizlik Konfransından az sonra Ermənistanın həm dövlət sərhədimizdə, həm də Qarabağdakı təmas xəttində atəşkəsi pozmasının səbəbləri, rəsmi İrəvanın iki ölkə arasındakı sərhədin hər iki tərəfində gömrük və təhlükəsizlik postlarının qurulması ilə razılaşıb-razılaşmayacağı, Azərbaycan dövlətinin Xankəndi, Xocalı və digər hüquqi-tarixi ərazilərimizdə yurisdikiyasını bərpa etməsi qarşısındakı əngəllər və s. məsələləri müzakirə etməyə çalışdıq. Laçın ərazisində Ermənistanla sərhəddəki nəzarət-keçid postunu elə bu gün qoysaq yaxşı olar" (Laçın, 2023). Azərbaycanın Avropa ilə iqtisadi əlaqələrinin genişlənməsində dinamik inkişaf açıq şəkildə görünməkdədir. Enerji layihələrinin daha da şaxələndirilməsi istiqamətində atılan addımlar çox vacib amil olaraq gündəmə gəlməkdədir. Sofiyada Bolqarıstanın "Bulqartransqas", Rumıniyanın "Transqas", Macarıstanın FGSZ, Slovakiyanın "Eustream" və Azərbaycanın Dövlət Neft Şirkəti (SOKAR) arasında əməkdaşlığın təşviqi ilə bağlı Anlaşma Memorandumunun imzalanması mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qeyd etmişdir ki, "Yunanıstan-Bolqarıstan Qaz interkorrektoru layihəsi Azərbaycanın Avropaya qaz tədarükü coğrafiyasının genişləndirilməsini mümkün edib.Anlaşma Memorandumunun imzalanması enerji təhlükəsizliyi baxımından olduqca vacib və vaxtında atılmış addımdır" (Kamalqızı, 2023). Ekoloqlar birliyinin Xankəndi-Laçın yolunda 135 gün davam edən aksiyasından sonra həmin yolun Ermənistanla sərhədində Azərbaycan Sərhəd Xidmətinin buraxılış məntəqəsi öz işinə başladı. 44 günlük müharibədən sonra da Qarabağa qeyri-qanuni silahlar daşınır, hətta Rusiya sülhməramlılarının

nəzarətində olan ərazilərdə təxribatlar törədilirdi. “Elə bütün bunların qarşısının alınması məqsədilə və Ermənistan tərəfindən aprelin 22-də birtərəfli qaydada Azərbaycan ilə sərhəddə Laçın-Xankəndi yolunun girişində nəzarət buraxılış məntəqəsinin qurulmasına adekvat olaraq aprelin 23-ü saat 12:00-da Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin bölmələri tərəfindən ölkəmizin suveren ərazilərində, Ermənistanla ilə sərhəddə, Laçın-Xankəndi yolunun başlanğıcında sərhəd buraxılış məntəqəsi quruldu” (Məmmədova, 2023). Bu məntəqənin qoyulması dövlətin ərazi bütövlüyünün tam bərpa olunması anlamına gəlir. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin bəyanatında da bu məqam xüsusi qeyd edilir ki, “Laçın yolunun başlanğıcında sərhəd-nəzarət mexanizminin təsis edilməsi yoldan hərəkət üzrə şəffaflığı, qanunun aliliyini və beləliklə, hərəkətin təhlükəsizliyini təmin edəcək, Sərhəd təhlükəsizliyinin təmin edilməsi, hərəkətin təhlükəsizliyinin həyata keçirilməsi Azərbaycanın bu ərazilərində milli təhlükəsizlik, dövlət suverenliyi, qanunun aliliyi üçün zəruri şərtdir” (Azərbaycanın beynəlxalq hüquqa söykənən addımı, 2023). ATƏT-in Minsk Qrupu 30 il ərzində heç bir iş görmədiyi kimi, 44 günlük müharibədən sonra Rusiya sülhməramlı qüvvələri də Ermənistanın Qarabağda yerləşdirdiyi hərbi kontingenti çıxarılmasını təmin etməmişdir. “Azərbaycan və Rusiya Prezidentləri İlham Əliyev və Vladimir Putin, Ermənistanın isə baş naziri Nikol Paşinyan arasında imzalanan Bəyannamənin 4-cü bəndində deyilir: “Rusiya Federasiyasının sülhməramlı kontingenti erməni silahlı qüvvələrinin çıxarılması ilə paralel şəkildə yerləşdirilir” (Vəliyev, 2023). 2023-cü ildə Brüsseldə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişellə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan Baş naziri Nikol Paşinyan arasında üçtərəfli görüşün davam etməsi bir tərəfdən sülhə inamı artırsa da, digər tərəfdən Avropa İttifaqı Missiyasının Ermənistanı müharibəyə təşviq etməsi onu deməyə əsas verir ki, Ermənistan dövləti revanşist fəaliyyətindən birdəfəlik əl çəkmək istəmir. 2020-ci il sentyabrın 27-də Ermənistanın əkshücumuna qarşı başlayan Vətən müharibəsinin qələbə ilə başa çatmasından sonra beynəlxalq təşkilatların Azərbaycana qarşı mövqeyi də xeyli dəyişdi. O vaxta qədər Ermənistan və Azərbaycan danışıq masasında bərabər tutulmuş, işğalçı ölkənin ünvanı açıq göstərilməmişdi.

Ümumilikdə, Şarl Mişel, İlham Əliyev və Paşinyan arasında 6 dəfə görüş keçirilmişdir. Burada Qərbi Azərbaycan icmasının qayıdışı məsələsi, həmçinin sülhməramlıların nəzarətində olan ermənilərin təminatının Ermənistandan deyil Azərbaycan tərəfindən yerinə yetirilməsi məsələsi xüsusi olaraq müzakirə predmeti olmuşdur. Bu görüşdə Ermənistan Baş naziri Paşinyan tərəfndən “Qarabağın Azərbaycanın bir hissəsi olması” fikrini səsləndirməsi də yeni geosiyasi

reallıq çərçivəsində həqiqətin təsdiqlənməsidir: “Ermənistanın fevralın 12-də iki ölkənin şərti sərhədində törətdiyi hərbi təxribat Avropa İttifaqının Hayastanda yerləşdirilmiş yarımhərbiləşdirilmiş missiyası ilə bağlı da müəyyən sualların meydana çıxmasına səbəb oldu. Bu missiya iki ölkə arasında etimad quruculuğu istiqamətində, onsuz da, heç bir uğura imza atmamışdı” (Həmid, 2024).

**Nəticə**

Beləliklə, Avropa İttifaqı missiyasının Cənubi Qafqaza gəlməsi, Ermənistanın revanşist hisslərinin oyanması, Qarabağ ərazisində olan ermənilərin mənasız tabesizlik dirənişi, Azərbaycan hökumətini antiterror əməliyyatı keçirilməsi məcburiyyətində qoydu. 23 saatlıq antiterror əməliyyatı ermənilərin ağ bayraq qaldırması ilə nəticələndi. 2020-ci il Ermənistan ordusu 44 gün müddətinə kapitulyasiya imzalamağa razılaşmışdısa, onların Qarabağda qalan tör-töküntüləri 23 saata ağ bayraq qaldırdılar. Bundan sonra, Azərbaycanı müxtəlif beynəlxalq təzyiqlərlə üzbəüz qoymaq üçün bölgədə qalan təqribən 27.000-30.000 əhali Qarabağ ərazisini tərk etdi. Ermənilərin Qarabağı tərk etməsinin digər səbəbi isə onların əksəriyyətinin Azərbaycan vətəndaşı deyil, Ermənistan və digər dövlətlərdən ora gətirilmiş xarici dövlətin vətəndaşlarının olması idi. Həmçinin onların bu ərazini tərk etməsinin digər bir səbəbi də əksəriyyətinin Azərbaycana qarşı cinayət törətmələri, seperatçı qüvvələrlə əlbir olaraq Azərbaycana qarşı etnik təmizləmə və soyqırımda fəaliyyətlərində iştirak etməsi idi.

**Kaynaklar**

Ağayev, T. (6 yanvar 2023) .İrəvan Moskva ilə bütün bağlarını qırır. *Bakı Xəbər*.

Aİ-nin Ermənistandakı missiyası hərbi kontingentə bənzəyir, (25 yanvar 2023). https://report.az/region-xeberleri/kiv-ai-nin-missiyasi-mulki-deyil-herbi-kontingente-

Armenia, Azerbaijan agree to EU mission on border, (2022, October, 7). https://eurasianet.org/armenia-azerbaijan-agree-to-eu-mission-on-border

Armenia: EU establishes a civilian mission to contribute to stability in border areas, (2023, Yanuary, 23). https://www.consilium.europa.eu/en/press/press-releases/2023/01/23/armenia-eu-

Azərbaycan-Fransa iqtisadi əlaqələrinin səviyyəsi məmmnunluq doğurur. https://azerbaijan-

Azərbaycanın beynəlxalq hüquqa söykənən addımı suverenliyimizin təsdiqidir. (26 aprel 2023). *Səs*.

Cəfərli, R. (3 fevral 2023). Azərbaycanla təhdidlə danışmaq olmaz, İran törətdiyi terrora görə cavab verəcək. *Azərbaycan*.

European Political Community: Leaders of Azerbaijan and Armenia meet in Prague, (2022, October, 7). https://euneighbourseast.eu/news/latest-news/european-political-community-leaders-

Əliyev, A. (23 fevral-1 mart 2023). Avropa atəşkəsi pozdu. *Həftə içi.*

Həmid, S. (15 fevral 2024). Aİ missiyası niyə susur? *Xalq*.

Kamalqızı, R. (26 aprel 2023). Avropanın enerji təhlükəsizliyinə növbəti töhfə. *Səs*.

Qardaşxanova, Ə. (3 fevral 2023). Ədalət qlobal hüquq müstəvisində təmin olunmalıdır. *Azərbaycan*.

Qəribli, M. (6 yanvar 2023). Ermənistanın sülhməramlılar əleyhinə kampaniyası Rusiyanı çox narahat edir. *Bakı Xəbər*.

Qəribli, M. (6 yanvar 2023). İsraildən Azərbaycana misilsiz təklif – müsəlman ərəb dövlətlərindən beləsini görmədik. *Bakı Xəbər*.

Quliyev, R. (23 dekabr 2022 № 235). Azərbaycanın "Yaşıl enerji" dəhlizinə qoşulmaq istəyən Avropa ölkələrinin sayı artır. *Bakı Xəbər*.

Laçın, S. (23 fevral-1 mart 2023). Laçında nəzarət postunu bu gün qoymalıyıq. *Həftə içi*.

Məmmədova M. (26 aprel 2023). Laçın-Xankəndi yolu: Zəfərdən Zəfərə. *Səs*.

Müstəqillik dövründə ingilisdilli mətbuatda Azərbaycan obrazı (1993-2003). (2023). Məqalələr toplusu. Sim-Sim.

Ordahallı, V. (23 dekabr 2022 № 235) Rusiya səfirinin BMT TŞ-də "Laçın çıxışı" spiker Simonyanı niyə qıcıqlandırdı? *Bakı Xəbər*.

Ordahallı, V. (6 yanvar 2023, №1). Beynəlxalq donor təşkilatları Azərbaycanın azad ərazilərinə niyə kpmək etmirlər? *Bakı Xəbər*.

Prezident İlham Əliyev Qərbi Azərbaycan icmasının inzibati binasında yaradılan şəraitlə tanış olub. (23 dekabr 2022 № 235). *Respublika*.

Tağıyev, T. (3 fevral 2023). İrana qarşı "Oktopus doktrinası" işə düşdü. *Bakı Xəbər*.

Vardanyan predstavil polnost'yu zakrytyye karty Gumanitarnyy krizis k otkrytiyu aeroporta Khankendi (6-12 yanvarya 2023 g.). Bashnya.

Vəliyev, V. (26 aprel 2023). Fransızsayağı monses. *Səs*.

Zəfər Yolu: Qarabağ savaşından Şuşa Bəyannaməsinədək. (2021). Elm.